**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **OKTYABR 2019**
**MALİYYƏLƏŞDİRMƏ, BANKLAR**

## XARİCİ MALİYYƏ YARDIMI

Bu yaxınlarda edilmiş dəyişiklərə əsasən dövlət tərəfindən nəzarət edilən hüquqi şəxslər də (mərkəzi və yerli icra hakimiyyəti orqanlar birgə) xarici maliyyə yardımların əlaqələndirilməsinə cəlb olunublar.

5 iyul 2019-cu il tarixindən belə şirkətlər Nazirlər Kabinetinin icazəsi ilə Azərbaycan Respublikasının və ya hökuməti adından texniki yardım və ya qrant alınmasına dair sazişlərin müzakirəsini və imzalanmasını həyata keçirə bilərlər. İmzalanmış müqavilə Nazirlər Kabineti tərəfindən təsdiq edilir; müqavilədə qanun və ya fərmanlar ilə müəyyən edilmiş qaydalardan fərqli qaydalar nəzərdə tutulursa, təsdiq müvafiq olaraq parlament və ya Prezident tərəfindən verilməlidir.

Başqa fərmana əsasən isə dövlət tərəfindən nəzarət edilən şəxslər xarici mənbədən (xarici dövlət və təşkilatlar tərəfindən verilən kredit, texniki yardım və ya qrant hesabına) maliyyələşdirilən KOB inkişaf proqramları barədə məlumatı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə təqdim etməlidirlər. Belə ki, onlar Agentliyə həmin proqramların məqsədləri, hər bir KOB tərəfindən alınmış dəstəyin forması və ölçüsü və dəstəyin şərtləri və təsiri barədə məlumaların çatdırırlar. Dəstəyin təqdim ediləcəyi KOB-lar isə müvafiq reyestrdən seçilməlidir.

Agentlik öz növbəsində xarici maliyyələşdrimə əsasında həyata keçirilmiş proqramların KOB-ların inkişafına təsirini öyrənməli və gələcəkdə xarici dövlət və beynəlxalq təşkilatların maliyyələşdirilməsinə təklif edilən proqramları müəyyən etməlidir.

## BANK HESABLARI MƏSAFƏDƏN AÇILA BİLƏR

10 iyun 2019-cu il tarixində, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası, Bank Hesablarının Açılması, Aparılması və Bağlanması Qaydalarını təsdiq etmişdir. Qaydalar, hüquqi aktların dövlət reyestrində 24 iyun 2019-cu il tarixində qeydiyyatdan keçmişdir və 25 iyun 2019-cu il tarixindən qüvvədədir.

Qaydalar, şəxslər (hüquqi və fiziki şəxslər) tərəfindən bank hesablarının məsafədən açma prosedurаlarını daxil edir. Prosedurаlar, bankın yeni və mövcud müştəriləri arasında fərqlənir. Qaydalar bundan sonra yeni müştəriləri (i) rezident hüquqi şəxs və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs, (ii) rezident fiziki şəxs, və (iii) qeyri-rezident fiziki şəxslərə bölür.

Hüquqi və sahibkar fiziki şəxslər gücləndirilmiş elektron imza aldıqdan sonra bankla video görüntü vasitəsilə bank hesabını aça bilər. Hüquqi və fiziki şəxs, hesab adi qaydada açıldıqda, hal-hazırda tələb edilməyən imza və möhür nümunələri vərəqəsi çıxmaqla, tələb edilən eyni sənədləri, yəni, (hər ikisi elektron şəkildə mövcud olan) nizamnamə/eyniləşdirmə sənədinin son versiya məlumatları və vergi orqanı tərəfindən verilmiş şəhadətnamə-dublikatını, banka təqdim etməlidir.

Gücləndirilmiş elektron imza və bankla video görüntü vasitəsilə hesab açan rezident fiziki şəxslər (sahibkar olmayan) eyni qaydalara riayət edir.

Bundan əlavə, məsafədən hesab açan rezident fiziki şəxslər, bunu:

– sadəcə video görüntü vasitəsilə, yəni elektron imza olmadan, etdikdə, hesab üzrə bir il ərzində həcmi 6.000 manatadək və ya onun ekvivalentində xarici valyutada əməliyyatları apara bilər; və

– müvafiq informasiya resursunda autentifikasiya vasitəsilə etdikdə, hesab üzrə bir il ərzində həcmi 500 manatadək və ya onun ekvivalentində xarici valyutada əməliyyatları apara bilər.

Qeyri-rezident fiziki şəxslər, məsafədən bank hesabını həm elektron imza həm video görüntü (hər ikisi tələb edilməklə) vasitəsilə sahibkar fiziki şəxslər üçün yuxarıda göstərilmiş proseduraya riayət etməklə aça bilər.

Adi qaydada bank hesabını açmış fiziki şəxslər, yəni bankın mövcud müştəriləri, onlardan eyniləşdirilmə və verifikasiya və hesab adi qaydada açıldıqda tələb edilmiş sənədlər yenidən tələb olunmadan, əlavə bank hesablarını məsafədən aça bilər.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2019 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.